DÖVLƏT VERGİ XİDMƏTİ

# Vergi tutulan gəlir müəyyən edilərkən nəzərə alınmayan gəlir və zərər halları

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2026-ci il tarixindən etibarən** Vergi tutulan gəlir müəyyən edilərkən aşağıdakı hallarda gəlir və ya zərər nəzərə alınmır:

**I. Amortizasiya olunmayan aktivlər üzrə dövlət subsidiyaları**

Torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar və qurğular, eləcə də köhnəlməyə məruz qalmayan aşağıda qeyd olunan amortizasiya olunmayan aktivlərin alınması və ya quraşdırılması məqsədilə dövlət büdcəsindən ayrılan və aktivlərə aid edilən subsidiyalar:

- elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər və başqa əyanı vəsaitlər;

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- məhsuldar heyvanlar (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, qoyunlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və bunlar kimi digər məhsuldar heyvanlar);
- heyvanxanalarda və digər analoji müəssisələrdə olan heyvanat aləminin eksponatları;
- istismar müddəti çatmamış çoxillik əkmələr;
- kitabxana fondları, kinofondlar (video, audio, foto), səhnə rekvizitləri, muzey sərvətləri (eksponatları);
- tam amortizasiya olunmuş əsas vəsaitlər, onlar istismara yararlı olduğu hallarda;
- konservasiya edilmiş əsas vəsaitlər;
- ümumi istifadədə olan avtomobil yolları;
- ümumi istifadədə olan parklardakı avadanlıqlar;
- istismara verilməmiş və anbarda olan əsas vəsaitlər.

## II. Dövlət investisiyaları və nizamnamə kapitalına yönəldilən vəsaitlər

- Dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına 01.01.2026-cı il tarixinədək dövlət müəssisələrinə ayrılmış və nizamnamə kapitalına aid edilmiş vəsaitlər;
- 01.01.2026-cı ildən sonrakı dövrdə dövlət investisiya proqramı çərçivəsində ayrılan vəsaitlər hesabına alınan və ya quraşdırılan amortizasiya olunan aktivlərin əldə edilməsi və ya quraşdırılması üçün ayrılan subsidiyalar.

BAKI — 2026